# Turizmin inkişafında Azərbaycanın beynəlxalq imicinin önəmi

## *İlham Əliyev: "Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır"*

**Turizm Azərbaycanda qeyri-neft sektorlarından biridir və milli iqtisadiyyatın inkişafı üzrə yol xəritəsində mühüm yer tutur. Ölkəmizin ümumi inkişaf dinamikasına çox müsbət dəyər verən dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu gün Azərbaycan dünyada daha çox tanınır, turistlərin sayı getdikcə artır və birinci rübdə 12,5 faiz artım olmuşdur. Əgər biz əvvəlki illəri də nəzərə alsaq, görərik ki, bu dinamik artımda ardıcıllıq vardır: "Bunun da bir çox səbəbləri var - Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, otellər...".**

Azərbaycanda turizm potensialının dünya miqyasında təbliğinə, ölkəmizə gələn qonaqların sayının ildən-ilə artmasına, turistlərin çoxalmasına təsir göstərən ən vacib amillərdən biri respublikamızın müxtəlif beynəlxalq forumlara, idman yarışlarına, eyni zamanda, sərgilərə ev sahibliyi etməsidir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin Azərbaycanı dünyaya təqdim etməsinin əhəmiyyətini vurğulayan cənab İlham Əliyevin qeyd etdiyi kimi, onların arasında Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovizion" müsabiqəsi və Formual 1 yarışları xüsusi rol oynayır: "Çünki Formula 1 yarışlarının tamaşaçı auditoriyası yarım milyard insana bərabərdir. Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və daha çox Azərbaycana turist kimi gəlsinlər".

Məlum olduğu kimi, dövlət başçısı 2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamda bu sahənin inkişafını təmin etmək üçün bir sıra mühüm işlərin həyata keçirilməsi qərara alınıb. O cümlədən, yeni yaradılan Turizm Şurası Azərbaycanda turizm sənayesinin inkişafına müsbət təsir göstərməkdədir. Turizm Şurasının yaradılmasında əsas məqsəd ölkəmizdə turizm sahəsində mövcud vəziyyətin təhlil edilməsi, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir. Digər tərəfdən, 2017-ci ildə yaradılan Milli Turizm Təbliğat Bürosu da uğurla fəaliyyət göstərir. Büro tərəfindən turizmin təbliği istiqamətində mühüm və çox əhəmiyyətli layihələr reallaşıb. Bütün bunlarla yanaşı, son illər ölkəmizdə ənənəvi turizm növləri və məhsulları ilə bərabər, alternativ turizm növlərinin təbliği və inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilib.

**(davamı 2-ci səhifədə)**

# Turizmin inkişafında Azərbaycanın beynəlxalq imicinin önəmi

## *İlham Əliyev: “Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır”*

**(əvvəli 1-ci səhifədə)**

Məsələn, “Şahdağ”, “Tufandağ” və bu kimi layihələrin reallaşması Azərbaycanda turizmin mövsimilik probleminin aradan qaldırılmasına geniş imkanlar yaratmışdır. Bütün bunların müsbət nəticəsidir ki, 2018-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycana dünyanın 182 ölkəsindən 847,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çox turist gəlmişdir. Gələnlərin 28,3 faizi Rusiya Federasiyası, 21,9 faizi Gürcüstan, 13,4 faizi İran, 11,3 faizi Türkiyə, 4,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Ukrayna, 1,9 faizi İraq, 16,5 faizi digər ölkələrin vətəndaşlarıdır.

Turizmin inkişafı Azərbaycanda sürətlə gedir. Bu sahəyə daha sistemli şəkildə yanaşma olmalıdır. Azərbaycanı dünyada çox yaxşı tanıyırlar, ölkəmizin çox gözəl beynəlxalq imici var, — deyən cənab İlham Əliyev bildirib ki, indi ölkəmizə gələn turistlərin sayı artır və hazırda 90-dan çox ölkənin vətəndaşları vizanı aeroportlarda alırlar, amma sahədə də təkmilləşmə işləri aparılacaqdır: “Çünki, əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda gələn turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı, bu pozuntuları yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər də cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq. Ancaq biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək”. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır. Çünki bəzi hallarda gələnləri incidirlər, yolda saxlayırlar, onlardan əsassız rüşvət, pul tələb edirlər, dilənçilik edirlər, keçidlərdə duran o adamlar xalqımızı, dövlətimizi biabır edirlər. Mən aidiyyəti qurumlara çox ciddi xəbərdarlıq etdim, onları tənbeh etdim. Bu pozuntular yığışdırılmalıdırlar. Ölkəmizin imicinə xələl gətirən adamlar cəzalandırılacaqlar. Sərhəd-keçid məntəqələri elə olmalıdır ki, xaricdən gələn qonaq orada əziyyət çəkməsin”.

Dövlət başçısı cənab İlham Əliyevin turizm sektoruna diqqət və qayğısı beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bu ilin aprel ayında ölkəmizdə keçirilən beynəlxalq sərgi turizm biznesi, yerli və regional turizm təşkilatları, dövlət strukturları, eləcə də media nümayəndələrini bir araya toplayaraq regionun həm daxili, həm də xarici turizm dinamikasını yaxından təqdim etdi. Burada, həmçinin Xəzəryanı regionun turizm sənayesinin əsas sərgisində mühüm görüşlər keçirilmiş, tərəfdaşlıq müqavilələri imzalandı, habelə yeni proqram və turizm marşrutları elan edildi. Sərgidə iştirak edən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili Azərbaycanın turizm sahəsində böyük potensialı olduğunu, son illərdə turizmin inkişaf etdiyini, ölkəmizdə bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyini xüsusi qeyd etdi.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**

Respublika.- 2018.- 8 iyul.-S.1-2.